# Azərbaycanda çox güclü qeyri-neft ixracı potensialı yaradılır

## *Dövlət institusional tədbirlər görür, ixracı stimullaşdırır ki, sahibkarlar xaricə daha çox məhsul satmaqda maraqlı olsunlar*

**Azərbaycan qlobal iqtisadi və maliyyə böhranına baxmayaraq, siyasi-iqtisadi inkişafını davam etdirən, dünyanın ən islahatçı və dinamik inkişafını qoruyan ölkələrindən biridir. Qazanılmış bu müvəffəqiyyətin əsasında isə elmi və praktiki əsaslarla ölçülüb-biçilərək hazırlanmış Dövlət proqramları, daxili və xarici siyasi-iqtisadi amillər nəzərə alınmaqla, gələcək perspektivlərə hesablanmış siyasi kurs dayanır. Bu uğurun əsas səbəblərindən biri də keçirilən islahatların bir-birini tamamlaması, reallaşmış layihələrin digərlərinin həyata keçirılməsində əsas olması, zəmin yaratmasıdır. Necə ki ümummilli lider Heydər Əliyevin neft strategiyasının bəhrəsi olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismarından gələn gəlir qeyri-neft sektorunun inkişafina imkan yaratdı, möhkəm zəmin oldu. Qeyri-neft sektorunun inkişafı isə iqtisadiyyatın neft amilindən asılılığını azaltdı və həm də çoxsahəli inkişafa səbəb oldu.**

İki Dövlət proqramının uğurla yerinə yetirilməsi sayəsində Azərbaycanın iqtisadi potensialı kifayət qədər güclənmiş, 2004-2014-cü illərdə ölkə dünyada ən sürətli templərlə inkişaf etmişdir. Belə ki, iqtisadiyyat 3,4 dəfə artmışdır. Sənaye sahəsində isə bu göstərici 2,7 dəfədir. Həmin müddətdə başqa ölkədə iqtisadiyyat bu sürətlə bu qədər artmamışdır. Bunun başlıca səbəbi isə aparılan islahatlar, həm də mövcud sabitlik, ictimai asayişdir. Belə davamlı innovativ inkişaf düşünülmüş siyasət və sabitlik şəraitində baş verir. Azərbaycanda aparılan iqtisadi islahatlar siyasi islahatlarla tamamlanır. Bu iki istiqamət arasında uzlaşma göz önündədir, inkişafın dinamizmini təşkil edir. Hazırkı səviyyədə xarici siyasətimizin yaratdığı zəminə diqqət yetirək.

Bu gün Azərbaycan regionun qüdrətli və nüfuzlu dövlətidir və bu mövqe günü-gündən güclənir. Bu gün Azərbaycanın müsbət rəyi və iştirakı olmadan yerləşdiyi regionda heç bir layihə müsbət reallaşa bilməz. Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq "Cənub" qaz dəhlizi zəruri enerji təhlükəsizliyi layihəsidir. İstismarda olan əsas ixrac Bakı-Tbilisi-Ceyhan neft boru kəməri Qafqazı Aralıq dənizinə, Bakı-Tbilisi-Ərzurum qaz kəməri isə Qafqazı Anadoluya bağladı. "Cənub" qaz dəhlizi isə Qafqazı Balkana bağlayacaq. Diqqətə çatıraq ki, bu il inşası başa çatdırılacaq Bakı-Tbilisi-Qars dəmir yolu Pekini Londona bağlayacaq. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Asiya qitəsini Avropa qitəsi iilə birləşdirəcək mühüm qovşaq mövqeyindədir. Misal üçün deyək ki, Trans Adriatik (TAP) qaz kəməri TANAP-ın davamıdır və qaz nəqlinin şaxələndirilməsinin, dövlətlərin enerji təhlükəsizliyinin tәmininin bariz nümunəsidir, bu zaman Azərbaycanın bu beynəlxalq əməkdaşlıqda tranzit və təchizatçı ölkə kimi necə səmərəli rola malik olduğu aydın olar. Bu il Ukrayna rəsmiləri Bakıya səfərə gələrkən bu ölkənin imkanlarından istifadə edərək yeni bir dəhliz açmağı təklif etmişlər. Bu, Azərbaycanın həm nüfuzunu, həm gücünü, həm də geosiyasi əhəmiyyətinin göstəricisidir. Təbii ki, bu, son hədd deyil. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu dəhlizlərin yaradılmasının həm də mühüm iqtisadi və siyasi dividendləri vardır.

Azərbaycan Prezidenti Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarımilliyinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin əhəmiyyəti barədə deyib: "Həm "Cənub" qaz dəhlizinin, həm də Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin icrası ölkəmizin önəmini böyük dərəcədə artıracaq. Bu layihələr Azərbaycan və bizim tərəfdaşlarımız üçün çox böyük strateji əhəmiyyət daşıyır. Çünki bizim coğrafi vəziyyətimiz diktə edir ki, Azərbaycan nəinki regional, dünya miqyaslı nəqliyyat mərkəzlərinin birinə çevrilməlidir. Bu məqsədlə lazımi tədbirlər görülür. Həm liman, həm Şimal-Cənub və Şərq-Qərb dəhlizləri inşa edilir. İndi bütün tərəfdaş ölkələrlə və potensial tərəfdaş ölkələrlə ciddi danışıqlar aparılır. Biz çalışmalıyıq ki, yükləri səfərbər edək və Azərbaycan ərazisindən keçən yük daşımalarının sayı artsın. Bu da ölkəmizin həm siyasi maraqlarına cavab verəcək, həm də ki, böyük mənfəət gətirəcəkdir". Beləliklə, uzunmüddətli inkişaf perspektivəri hər bir müəyyən dövrdə ölkə qarşısında tələbə uyğun inkişaf vəzifələri qoyur. Ona görə də ölkəmizin uzun müddətli dayanıqlı və səmərəli iqtisadi inkişafını təmin etmək üçün rəhbərlik bütün biliyini və bacarığını sərf edir, tələb olunan islahatları vaxtında həyata keçirir, müəyyən edilmiş strateji kursunu müvafiq dövlət proqramlarının və layihələrin icrası ilə reallaşdırır. Dövlət rəhbərliyinin yürütdüyü siyasətin mahiyyətində isə əldə edilən davamlı innovativ inkişafın iqtisadi və siyasi müstəqilliyin və dayanıqlı olmasını təmin etməsi durur. Bu gün aparılan iqtisadi siyasətin əsas məqsədi postneft dövrünün tələblərini yerinə yetirməkdir. Neftin qiymətinin bir ildə 4 dəfə aşağı düşməsi iqtisadiyyatın təcili olaraq daha da şaxələndirilməsi, ölkənin zəruri mallarla özünü təmin etməsini, təsərrüfat sahələrinin dominant inkişafı neftdən asılılığın tamamilə aradan qaldırılması çağırışlarını edir. Dövlət başçısı neftdən asılılığın aradan qaldırılması və büdcənin əsasən qeyri-neft sekorundan gələn gəlirlərlə təmin edilməsi barədə deyib: "Mən artıq dəfələrlə demişəm, biz postneft dövründə yaşayırıq. Düzdür, bir neçə ildən sonra Azərbaycan dünya bazarlarına çox böyük həcmdə təbii qazı da ixrac etməyə başlayacaq və yenə də valyuta axını artacaq. Ancaq biz elə yaşamalıyıq ki, artıq postneft dövründəyik və belə olan halda, əlbəttə, ciddi, daha da dərin iqtisadi islahatlar aparılmalı idi və aparılır. Həm maliyyə-bank sektorunda, həm də kənd təsərrüfatının, sənaye potensialımızın inkişafı ilə bağlı çox ciddi islahatlar aparılır. İxracın stimullaşdırılması, investisiya cəlb edilməsi üçün çox böyük güzəştlər tətbiq olunur. Eyni zamanda, vergi sahəsində, xüsusilə gömrük sektorunda ciddi islahatlar aparılır... Yəni, bütün sahələrdə islahatlar dərinləşməlidir, şəffaflıq təmin edilməlidir, nəzarət, maliyyə nəzarəti daha da gücləndirilməlidir. Belə olan halda biz neftdən asılılığı tamamilə aradan götürəcəyik. Məsələ məhz belə qoyulub. Bir neçə il ərzində dövlət büdcəmiz, onun mütləq əksəriyyəti qeyri-neft sektoru hesabına təmin edilməlidir. Ondan sonra neftin qiyməti qalxdı-düşdü, bunun heç bir əhəmiyyəti olmayacaq".

Aparılan siyasətin, reallaşdırılan transmilli layihələrin, infrastrukturların müasirliyinin təmin edilməsinin əsas məqsədi budur ki, indi olduğu kimi, bütün dövrlərdə də ölkə öz hesabına yaşaya bilsin, xalq həqiqi siyasi və iqtisadi müstəqilliyinə nail olub öz müqəddəratını həmişə olduğu kimi, özü müəyyən etsin. Azərbaycan bu yolla irəliləyir, bu gün ölkə heç kimdən asılı deyil, öz siyasətini ləyaqətlə aparır və nəticədə dövlətin siyasi nüfuzu, iqtisadi gücü davamlı surətdə artır, beynəlxalq arenada mövqeyi möhkəmlənir. Ölkəmizə gələn rəsmi və ya qeyri-rəsmi qonaqlar paytaxtda və bütün regionlarda gedən sürətli inkişafı və bu təbəddülatın əhatə dairəsini gördükdə heyranlıqlarını etiraf edirlər. Bu pozitiv proses dünyanın mötəbər qurumlarının, dövlət rəsmilərinin diqqət mərkəzindədir, onlar bu davamlı inkişafa yüksək qiymət verirlər. Ümumdünya Davos İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 40-cı yerdədir. Ölkəmizdəki nəhəng quruculuq işlərini və davamlı tərəqqini müşahidə edərkən qarşıya qoyulan məqsədə çatılacağına heç bir şübhə yeri qalmır. Bu davamlı innovativ tərəqqinin nəticəsidir ki, Azərbaycan beynəlxalq əməkdaşlıqda dünyanın qeyri-ənənəvi olan bölgələri üçün də artıq cəlbedici və önəmli ölkəyə çevrilib. Nəhəng tikinti meydanını xatırladan Bakıda və bölgələrimizdə gedən inşaat və quruculuq işləri bütün qonaqlarda heyranlıq doğurur. Azərbaycanda həyata keçirilən uğurlu siyasət nəticəsində əldə edilən iqtisadi artımın göstəriciləri ölkəmizdə tətbiq olunmuş iqtisadi modelin effektivliyinin hər kəsin təsəvvür edə bilməyəcəyi dərəcədə yüksəkliynin sübutu və bu, ölkədə güclü sosial-iqtisadi inkişafın davamlı getdiyinə bariz nümunədir. Hazırda postneft dövrünün tələbinə uyğun iqtisadi model formalaşmaqdadır, yarımillik yekunun göstəriciləri uğurlu strategiya və taktikadan xəbər verir.

Azərbaycanın bu gün dünyada nüfuzu daim artır. Təsadüfi deyil ki, ilin birinci yarısında Azərbaycana 10-dan artıq dövlət və hökumət başçısı səfər etmişdir. Təbii ki, hazırkı bu yüksəliş dövlət rəhbərliyinin prinsipial siyasi iradəsinin, gələcək perspektivi aydın təsəvvür etməsinin, vaxtında operativ, düzgün addımlar atmasının, təhlükəli risklərin önlənməsi üçün zamanında qərarlar qəbul edə bilməsinin, xalqın da ona inamının və birmənalı şəkildə dəstəkləməsinin nəticəsidir. Tətbiq olunan siyasi kursun nəticələri təsdiq edir ki, ölkə başçısı öz fəaliyyətində siyasi və iqtisadi müstəqillik prinsipini, milli mənafeni qorumağı rəhbər tutur və bu istiqamət artıq dövlət həyatının bütün sahələrində özünü büruzə verib və beynəlxalq aləmdə də Azərbaycanın imicinə çox müsbət təsir edir.

İqtisadiyyatın qüdrətinin daim güclənməsi, inkişafı həm də ölkənin bütün bölgələrində mövcud potensialın davamlı surətdə aşkara çıxarılaraq dövriyyəyə qoşulması, yeni layihələrin hazırlanıb reallaşdırılması və müasir infrastrukturun yaradılması, beynəlxalq standartlara uyğunluğu ilə də bağlıdır. Azərbaycanda bütün layihələr dünya standartlarına uyğun, kompleks şəkildə həyata keçirilir. Hər bir sahədə - kənd təsərrüfatı, ağır, yüngül, yeyinti, emal sənayesində iri layihələr reallaşdırılıb və yenilərinin bünövrəsi qoyulur. Dövlət regionların iqtisadi potensialını aşkara çıxararaq bu rayonları inkişaf etdirmək üçün bütün lazımi operativ addımları atır. Bu, bir tərəfdən ölkənin bölgələrinin paralel inkişafına xidmət edirsə, digər tərəfdən həmin regionların öz məhsulları ilə dünya bazarına çıxa bilməsinə, nəhayətdə sosial inkişafa da səbəb olur. Dayanıqlı, dinamik inkişaf edən iqtisadiyyata nail olmaq üçün hər bir sahə, ehtiyat mənbələri diqqətlə öyrənilir, perspektivlidirsə, dünya standartlarına uyğun şəkildə dövriyyəyə cəlb edilir. Bütün bunlar isə son nəticədə sosial-iqtisadi inkişafın sürətlə getməsinə səbəb olur. Bu gün Azərbaycan öz daxili imkanlarını səfərbərliyə alıb. Hazırda real iqtisadiyyatın ipəkçilik, pambıqçılıq, nəqliyyat, əczaçılıq, turizm və s. sahələri güclü surətdə inkişaf etdirilir. Ölkə rəhbəri İlham Əliyev məqsədin çox güclü rəqabətədavamlı qeyri-neft məhsulları ixracı potensialının yaradılması olduğu və bunun üçün dövlətin lazımi tədbirləri gördüyünü deyib: "Biz indi çox güclü qeyri-neft ixracı potensialı yaradırıq və eyni zamanda, institusional tədbirlər də görülür və görülməlidir ki, biz ixracı stimullaşdıraq, sahibkarlar xaricə daha çox məhsul satmaqda maraqlı olsunlar. Bu məqsədlə təşviq mexanizmi artıq tətbiq olunur. Mən əminəm ki, bunun çox müsbət təsiri olacaq və sahibkarlar da bundan istifadə edəcəklər... Dövlət sahibkarlara tövsiyələr verir, metodik sənədlər təqdim edir ki, onlar öz biznesini necə qursunlar. Dövlət kənd təsərrüfatı texnikasını alır, aqrolizinq yolu ilə fermerlərə verir, gübrə zavodunu tikir, - indi pestisid zavodunun tikintisi də nəzərdə tutulur, - suvarma işlərini təmin edir, yüz milyonlarla, milyardlarla manat dəyərində olan böyük Şəmkirçay, Taxtakörpü su anbarlarını yaradır, dağ çaylarının kanallar vasitəsilə bu anbarlara qoşulmasını təmin edir. Eyni zamanda, dövlət fermerlərdən xaricə göndərmək üçün yardım formasında məhsulu almağa da hazırdır. Yəni, dövlət hər şey edir".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**